AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Oktyabr 2025

# M ü n d ə r i c a t


FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı ........ 2

Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 3

Rusiya buğdasının ixrac qiyməti ........ 6

Arpanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 6

Düyünün dünya bazarı qiymətinə dair qısa icmal ........ 8

Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal ........ 9

Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 10

Pambığın dünya bazarı qiymətinə dair qısa icmal ........ 11

Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal ........ 12

Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 13

Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal ........ 14

Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal ........ 15

Çayın dünya bazarı qiymətinə dair qısa icmal ........ 16

Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal ........ 17

Soyanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 18

Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 19

Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 20

Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 21

Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 22

Südün dünya bazarı qiymətinə dair qısa icmal ........ 23

Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal ........ 25

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

**(FAO-nun 6 noyabr 2025-ci il tarixli açıqlaması)**

***FAO-nun Ərzaq Qiymətləri İndeksi 2025-ci ilin oktyabr ayında əvvəlki aya nisbətən azalıb.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2025-ci ilin oktyabr ayında orta hesabla 126.4 bənd təşkil edib ki, bu da sentyabr ayı ilə müqayisədə 1.7% (2.2 bənd), ötən ilin oktyabr ayı ilə müqayisədə isə 0.4% (0.5 bənd) **azdır.**
- **Ət Məhsullarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 125 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 2.3% (2.9 bənd) **az**, ötən ilin oktyabr ayı ilə müqayisədə isə 4.8% (5.8 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 141.7 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 3.7% (5.5 bənd) **az**, ötən ilin oktyabr ayı ilə müqayisədə isə 1.9% (2.7 bənd) **çoxdur.**
- **Taxıl Qiyməti İndeksi** oktyabr ayında orta hesabla 103.6 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.2% (1.3 bənd), ötən ilin oktyabr ayı ilə müqayisədə isə 9.5% (10.8 bənd) **azdır**.
- **Bitki Yağlarının Qiymət İndeksi** sentyabr ayında orta hesabla 169.4 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.9% (1.5 bənd), ötən ilin sentyabr ayı ilə müqayisədə isə 10.9% (16.7 bənd) **çoxdur**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 94.1 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 5.3% (5.3 bənd), ötən ilin oktyabr ayı ilə müqayisədə isə 27.4% (35.5 bənd) **azdır.**

**FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)**




**FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)**




**Mənbə:** [http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/](http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/)

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 14 Noyabr 2025-ci il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2025/2026-cı məhsul ili üzrə qlobal buğda istehsalının 2024/2025-ci ilə nəzərən 28 milyon ton artaraq 829 milyon ton olacağı proqnozlaşdırılır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2023/2024 | 2024/2025 | 2025/2026 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 275 | 271 | 261 |
| | İstehsal | 792 | 801 | 829 |
| | **Cəmi təklif** | **1067** | **1072** | **1090** |
| **TİCARƏT** | İdxal / İxrac | 222 | 210 | 217 |
| **TƏLƏB** | Ərzaq və toxum | 638 | 653 | 658 |
| | Yem | 158 | 157 | 161 |
| | Cəmi istifadə | 796 | 810 | 819 |
| **İLİN SONUNA QALIQ (Qlobal Buğda Ehtiyatları)** | | 271 | 261 | 271 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ*** | | **34%** | **32%** | **33%** |

**Mənbə:** https://www.uswheat.org/market-information/supply-and-demand/

- 2024/2025-ci məhsul ili ilə müqayisədə məcmi təklifin həcminin 18 milyon ton (1.7%) artaraq 1090 milyon ton səviyyəsinə **qalxacağı** proqnozlaşdırılır.
- Qlobal buğda ehtiyatları həcminin 2024/2025-ci məhsul ili ilə müqayisədə 2025/2026-cı məhsul ilində 3.8% **artacağı** və 271 milyon tona **qalxacağı** gözlənilir. Nəticədə dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 33% səviyyəsində olacaq.
- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin 2025/2026-cı məhsul ilində 2024/2025-ci məhsul ili ilə müqayisədə 64 milyon tondan 62 milyon tona **azalaraq** 2 milyon ton az, istehsal həcminin isə 388 milyon tondan 420 milyon tona **artaraq** 32 milyon ton **çox** olacağı gözlənilir. Bununla da əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 2024/2025-ci məhsul ili ilə müqayisədə 452 milyon tondan 482 milyon tona **artaraq** 30 milyon ton **çox** olacaq.

- Dünya buğda ticarətinin 2025/2026-cı məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 3.3% (7 milyon ton) **artaraq** 217 milyon ton olacağı proqnozlaşdırılır.
- Çində ilin əvvəlinə olan qalıq həcminin əvvəlki məhsul ili ilə müqayisədə 2025/2026-cı məhsul ilində 5.2% (7 milyon ton) **azalaraq** 128 milyon ton olacağı gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2025/2026-cı məhsul ilində istehsal həcminin 3.0% (4.2 milyon ton) **artaraq** 143.0 milyon ton, ixracın isə 1.1% (0.8 milyon ton) **azalaraq** 70.8 milyon ton olacağı proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** [www.uswheat.org](http://www.uswheat.org)

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

- **2025-ci ilin oktyabr ayında buğdanın qiyməti əvvəlki aya nəzərən 0.1% artaraq 209 ABŞ dolları/ton səviyyəsində qərarlaşıb.**







**Mənbə:** https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

# Rusiya buğdasının ixrac qiyməti

- **Rusiya buğdasının ixrac qiyməti oktyabr ayında əvvəlki aya nisbətən sabit qalaraq 230 ABŞ dolları/ton təşkil edib.**







**Mənbə:** https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin oktyabr ayında Avropa İttifaqı arpasının qiyməti əvvəlki ayla müqayisədə 0.3% azalaraq 221.3 ABŞ dolları/ton, Qara dəniz arpasının qiyməti isə 0.4% azalaraq 225 ABŞ dolları/ton səviyyəsində qərarlaşıb.**







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/home*

## Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

➢ 2025-ci ilin oktyabr ayında düyünün qiyməti əvvəlki aya nisbətən 5.4% azalaraq 335.9 ABŞ dolları/ton səviyyəsində qərarlaşıb.







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

## Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Qarğıdalının dünya bazarı qiyməti oktyabr ayında əvvəlki aya nisbətən 0.4% artaraq 198.1 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

➢ **Dünya üzrə pambıq balansına əsasən, 2025/26-cı məhsul ilində pambıq istehsalının 2024/25-ci məhsul ili ilə müqayisədə 0.7% artaraq 120.1 milyon ton olacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton**

| | 2021/2022 | 2022/2023 | 2023/2024 | 2024/2025 | 2025/26 Sentyabr | 2025/26 Noyabr |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 72.7 | 71.2 | 75.9 | 73.4 | 74.1 | 74.5 |
| **İstehsal** | 114.3 | 116.0 | 112.6 | 119.3 | 117.7 | 120.1 |
| **Təklif** | 187.1 | 187.2 | 188.5 | 192.7 | 191.7 | 194.6 |
| **Fabrik istehlakı** | 115.7 | 112.7 | 115.0 | 119.0 | 118.8 | 118.9 |
| ***İlin sonuna qalıq*** | 71.2 | 75.9 | 73.4 | 74.5 | 73.1 | 75.9 |
| ***Qalıq/İstehlak nisbəti*** | *61.5%* | *67.4%* | *63.9%* | *62.6%* | *61.6%* | *63.9%* |

**Cədvəl 2. Çinin pambıq balansı, milyon ton**

| | 2023/24 | 2024/25 | 2025/26 Sentyabr | 2025/26 Noyabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 33.4 | 36.7 | 34.8 | 34.8 |
| **İstehsal** | 27.4 | 32.0 | 32.5 | 33.5 |
| **İdxal** | 15.0 | 5.2 | 5.2 | 5.4 |
| **Təklif** | 75.7 | 73.9 | 72.5 | 73.7 |
| **Fabrik istehlakı** | 38.9 | 39.0 | 38.5 | 38.5 |
| ***İstehlak*** | 39.0 | 39.1 | 38.6 | 38.6 |
| ***İlin sonuna qalıq*** | 36.7 | 34.8 | 34.0 | 35.2 |
| ***Qalıq/İstehlak nisbəti*** | *94.2%* | *89.2%* | *88.1%* | *91.2%* |

**Cədvəl 3. Çin istisna olmaqla dünya pambıq balansı, milyon ton**

| | 2023/24 | 2024/25 | 2025/26 Sentyabr | 2025/26 Noyabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 42.6 | 36.7 | 39.2 | 39.6 |
| **İstehsal** | 85.2 | 87.3 | 85.2 | 86.6 |
| **Təklif** | 127.8 | 124.0 | 124.5 | 126.3 |
| **Fabrik istehlakı** | 76.1 | 80.0 | 80.3 | 80.4 |
| **Çinə ixrac** | 15.0 | 5.2 | 5.2 | 5.4 |
| ***İstehlak*** | 91.1 | 85.2 | 85.5 | 85.8 |
| ***İlin sonuna qalıq*** | 36.7 | 39.6 | 39.2 | 40.8 |
| ***Qalıq/İstehlak nisbəti*** | *40.3%* | *46.5%* | *45.8%* | *47.5%* |

**Mənbə**: *https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/*

# Pambığın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Oktyabr ayında pambığın 1 kiloqramının qiyməti ("A Index") əvvəlki ayla müqayisədə 2.3% azalaraq 1.68 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

## Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin oktyabr ayında dünya bazarında xam ipəyin qiyməti əvvəlki aya nisbətən sabit qalaraq 66.3 min ABŞ dolları/ton səviyyəsində qərarlaşıb.**







**Mənbə:** https://businessanalytiq.com/procurementanalytics/index/raw-silk-price-index/

# Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin oktyabr ayında dünya bazarında quru baramanın qiyməti əvvəlki aya nisbətən 0.5% azalaraq tona 21.2 min ABŞ dolları səviyyəsində qərarlaşıb.**







**Mənbə:** https://businessanalytiq.com/procurementanalytics/index/dried-cocoons-price-index/

## Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

➢ Oktyabr ayında günəbaxan yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən 3.9% artaraq 1363 ABŞ dolları səviyyəsində qərarlaşıb.







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

## Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin oktyabr ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən İspaniya bazarında 1.6% artaraq 5020 ABŞ dolları, İtaliya və Yunanıstan bazarlarındada müvafiq olaraq 5.3% və 0.7% azalaraq 10670 ABŞ dolları və 5160 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







**Mənbə:** *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

## Çayın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Oktyabr ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ayla müqayisədə 2.4% artaraq 3.0 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin oktyabr ayında şəkərin dünya bazarı qiyməti əvvəlki aya nisbətdə 5.3% azalaraq 0.335 ABŞ dolları/kq səviyyəsində qərarlaşıb.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

## Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ Oktyabr ayında soyanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən sabit qalaraq 404 ABŞ dolları səviyyəsində qərarlaşıb.







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Oktyabr ayında mal ətinin 1 kiloqramının qiyməti əvvəlki aya nisbətdə 2.8% artaraq 7.1 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin oktyabr ayında Avropa bazarında qoyun ətinin 1 kiloqramının orta qiyməti əvvəlki aya nisbətən 0.4% azalaraq 10.03 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







**Mənbə:** https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html

## Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin oktyabr ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki aya nisbətən 8.9% azalaraq 2.1 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







**Mənbə:** *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

## Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin oktyabr ayında quş ətinin 1 kiloqramının dünya bazar qiyməti əvvəlki ayla müqayisədə 0.3% artaraq 3.5 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







**Mənbə:** https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html

# Südün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin sentyabr ayında süd xammalının 1 tonunun fermadan satış qiyməti əvvəlki ayla müqayisədə ABŞ bazarında 2.5%, Yeni Zelandiya bazarında 0.4% azalaraq və müvafiq olaraq 450 ABŞ dolları və 447 ABŞ dolları təşkil etmişdir. Avropa İttifaqı bazarında isə oktyabr ayında süd xammalının 1 tonunun fermadan satış qiyməti 2.5% azalaraq 611 ABŞ dolları olub.**







**Mənbə**: https://www.clal.it/en/index.php

➢ **Quru südün 1 tonunun qiyməti 2025-ci ilin oktyabr ayında əvvəlki ayla müqayisədə ABŞ-da 6.9% azalaraq 4074 ABŞ dolları, Avropa İttifaqında isə 10.1% azalaraq 4271 ABŞ dolları olub.**







**Mənbə:** [https://www.clal.it/en/index.php](https://www.clal.it/en/index.php)

## Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin oktyabr ayında kalium (potassium-xlorid) gübrəsinin qiyməti əvvəlki aya nisbətən 0.1%, azot gübrəsinin (karbamit) qiyməti 14.5% azalaraq müvafiq olaraq 352 ABŞ dolları və 394 ABŞ dolları, fosfor gübrəsinin qiyməti isə 0.9% azalaraq 659 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**

**Son 1 il ərzində gübrənin növlər üzrə dünya bazarında qiyməti, ABŞ dolları/ton**




**2022-2024-cü illər, 2024-cü ilin dörd və 2025-ci ilin bir, iki və üçüncü rübü ərzində gübrənin növlər üzrə dünya bazarında qiyməti, ABŞ dolları/ton**




**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets](https://www.worldbank.org/en/research/commodity-markets)

Əlaqə:
(+994 12) 599-08-88
https://atm.gov.az/az/
https://agroeconomics.az/
info@atm.gov.az
Süleyman Vəzirov küçəsi, 91
AZ 1025 Bakı, Azərbaycan

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ